# Layihələrdə yerli kadr təminatı şöbəsi üzrə test tapşırıqları

1. Heç bir dövlət tərəfindən onun qanununa əsasən vətəndaş hesab edilməyən şəxs necə adlandırılır?

A) Əcnəbi

B) Əməkçi miqrant

C) Miqrant

D) Xüsusi nümayəndə

E) Vətəndaşlığı olmayan şəxs

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

2. Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxs necə adlandırılır?

A) Əməkçi miqrant

B) Miqrant

C) Xüsusi nümayəndə

D) Əcnəbi

E) Vətəndaşlığı olmayan şəxs

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

3. Əməkçi miqrant anlayışı hansı bənddə tam və düzgün göstərilmişdir?

A) Haqqı ödənilən sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya edən fiziki şəxs

B) Haqqı ödənilən xeyriyyə fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya edən fiziki şəxs

C) Haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya edən fiziki şəxs

D) Haqqı ödənilməyən əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya edən fiziki şəxs

E) Haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslarla ölkə daxili yaşayış yerini dəyişən fiziki şəxs

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

4. Fiziki şəxsin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya etməklə yaşayış yerini dəyişməsi necə adlandırılır?

A) Əmək miqrasiyası

B) İş icazəsi

C) Məcburi miqrasiya

D) Yaşayış yerinin dəyişilməsi

E) İş şəraitinin dəyişdirilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

5. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə MİqrasiyaMəcəlləsi ilə müəyyən edilmiş qaydada verilən icazədir?

A) Müəyyən fəaliyyət üzrə sertifikat

B) Diplom

C) İş icazəsi

D) Əmək miqrasiyası

E) Əmək müqaviləsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

6. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasına gəlmək aşağıdakı hallardan hansılarda qadağan edilir? Tam və düzgün variantı seçin
1.Milli təhlükəsizlik və ya ictimai asayişin mühafizəsi, yaxud Azərbaycan Respublikası vətəndaşlarının və digər şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması bunu tələb etdikdə;
2.Şəxsin sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə

cinayətləri törətməsi və ya transmilli mütəşəkkil cinayətkar dəstənin üzvü olması barədə məlumat olduqda;
3. Şəxs Azərbaycan Respublikasının vətəndaşlarına və ya Azərbaycan Respublikasının maraqlarına (mənafelərinə) qarşı cinayət törətdiyinə görə məhkum olunduqda, əgər məhkumluğu qanunla müəyyən edilmiş qaydada ödənilməmişdirsə və ya götürülməmişdirsə;
4.Şəxs əvvəllər öz istəyi ilə Azərbaycan Respublikasının hüdudlarından kənara çıxmışdırsa
5.Şəxsin Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə;
6.Şəxs əvvəllər Azərbaycan Respublikasında olarkən ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərini pozduqda.

A) 1,2,3,4,5,6

B) 2,3,4,5,6

C) 1,3,4,5

D) 1,2,3,5,6

E) 1,2,3,4,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

7. Azərbaycan Respublikasında hansı müddətdən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar?

A) 12 gündən artıq

B) 15 gündən artıq

C) 7 gündən artıq

D) 8 gündən artıq

E) 10 gündən artıq

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

8. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən vizaların hansı növləri vardır?

A) Giriş və tranzit

B) Birdəfəlik və daimi

C) Əsas və köməkçi

D) Ümumi və xüsusi

E) Diplomatik və işgüzar

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

9. İşgüzar, elm, təhsil, əmək, turizm, mədəniyyət, idman, humanitar, müalicə və şəxsi səfər məqsədləri ilə Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hansı vizalar verilir?

A) Diplomatik kateqoriyalı giriş vizaları

B) Xidməti kateqoriyalı giriş vizaları

C) Adi kateqoriyalı giriş vizaları

D) Xüsusi kateqoriyalı giriş vizaları

E) Ümumi kateqoriyalı giriş vizaları

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

10. Giriş vizasının etibarlılıq müddəti birdəfəlik giriş-çıxış üçün hansı müddətədək müəyyən olunur.?

A) 30 günədək

B)  2 ilədək

C) 60 günədək

D) 90 günədək

E) 120 günədək

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

11. Giriş vizasının etibarlılıq müddəti çoxdəfəlik giriş-çıxış üçün hansı müddətədək müəyyən olunur?

A) 5 ilədək

B) 1 ilədək

C) 3 ilədək

D) 10 ilədək

E) 2 ilədək

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

12. Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq niyyətində olan və bunun üçün Azərbaycan Respublikasının dövlət orqanlarının, Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi şəxslərin və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, habelə xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin işəgötürən tərəf qismində vəsatəti əsasında gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hansı giriş vizası verilir?

A) Rəsmi səfər məqsədi ilə verilən giriş vizası

B) Elm və ya təhsil məqsədi ilə verilən giriş vizası

C) Əmək məqsədi ilə verilən giriş vizası

D) Müalicə məqsədi ilə verilən giriş vizası

E) Şəxsi səfər məqsədi ilə verilən giriş vizası

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

13. Əmək vizasında ölkədə qalma müddəti hansı müddətədək müəyyən edilir?

A) 30 günədək

B) 45 günədək

C) 60 günədək

D) 90 günədək

E) 120 günədək

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

14. Viza verilməsi üçün aşağıdakı sənədlərdən hansılar tələb olunur? Tam və düzgün cavabı müəyyən edin.
1.Nümunələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş ərizə-anket;
2.Pasport və ya digər sərhədkeçmə sənədi və onların əsas səhifələrinin surətləri;
3.Biometrik identifikasiya tələblərinə uyğun iki ədəd rəngli fotoşəkil (3x4sm);
4.Tibbi sığorta şəhadətnaməsinin surəti (dəvət edən tərəf tibbi xidmətləri öz üzərinə

götürmədikdə);
5.Viza verilməsi üçün dövlət rüsumunun ödənilməsi barədə sənəd;
6.Nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəfin vəsatəti.

A) 1,2,3,4,5,6

B) 1,2,3,4,5

C) 2,3,4,5,6

D) 1,2,3,4,6

E) 1,2,3,4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

15. Əmək vizasının aşağıdakı sənədlərdən hansılar tələb olunur? Tam və düzgün cavabı müəyyən edin.
1.Nümunələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş ərizə-anket;
2.Pasport və ya digər sərhədkeçmə sənədi və onların əsas səhifələrinin surətləri;
3.Biometrik identifikasiya tələblərinə uyğun iki ədəd rəngli fotoşəkil (3x4sm);
4.Həyat sığortasının şəhadətnaməsinin surəti;
5.Viza verilməsi üçün dövlət rüsumunun ödənilməsi barədə sənəd;
6.Nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəfin vəsatəti.

A) 1,2,3,4,5

B) 1,2,3,4

C) 2,3,4,5,6

D) 1,2,3,4,5,6

E) 1,2,3,5,6

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

16. Elektron qaydada verilən birdəfəlik vizada ölkədə qalma müddəti nə qədərdir?

A) 90 günədək

B) 45 günədək

C) 70 günədək

D) 30 günədək

E) 60 günədək

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

17. Elektron qaydada verilən çoxdəfəlik vizada ölkədə qalma müddəti nə qədərdir?

A) 45 günədək

B) 70 günədək

C) 90 günədək

D) 60 günədək

E) 30 günədək

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

18. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması üçün aşağıdakı sənədlərdən hansıları təqdim etməlidirlər? Tam və düzgün cavabı müəyyən edin.
1.Nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş ərizə-anket;
2.Pasportun və ya digər sərhədkeçmə sənədinin surəti;
3.Doğum haqqında şəhadətnamə və ya ona bərabər tutulan digər sənədin notariat qaydasında təsdiq olunmuş surəti (pasportu olmayan 18 yaşına çatmamış şəxslər üçün);
4.3,5x4,5 sm ölçüdə iki ədəd fotoşəkil;
5.Qeydiyyata alınacağı yaşayış sahəsinin sənədi;
6.Əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin ərizəsi;
7.Dövlət rüsumunun ödənilməsi barədə sənəd.

A) 1,2,4,5,6

B) 2,3,4,5,6

C) 1,2,3,4,5,7

D) 1,2,3,4,5

E) 1,2,3,4,5,6,7

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

19. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verildiyi hallar aşağıdakılardan hansılardır? Tam və düzgün cavabı müəyyən edin.
1.Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda;
2.Ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyduqda;
3.Azərbaycan Respublikasının ərazisində azı 100.000 manat dəyərində daşınmaz əmlakı və ya Azərbaycan Respublikasının banklarında həmin məbləğdə pul vəsaiti olduqda;
4.Azərbaycan Respublikasında fəaliyyət göstərən banklara müddətli əmanət müqaviləsi əsasında azı 100.000 manat məbləğində pul vəsaiti qoyduqda;
5.İqtisadiyyat, sənaye, hərbi, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda.

A) 1,2,3,4

B) 2,3,4,5

C) 1,2,3,5

D) 1,2,3,4,5

E) 2,3,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

20. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verildiyi hallar aşağıdakılardan hansılardır? Tam və düzgün cavabı müəyyən edin.
1.Ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyduqda;
2.Azərbaycan Respublikasının ərazisində azı 100.000 manat dəyərində daşınmaz əmlakı və ya Azərbaycan Respublikasının banklarında həmin məbləğdə pul vəsaiti olduqda;
3.İqtisadiyyat, sənaye, hərbi, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda;
4.Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ailə üzvləri olduqda;
5.xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı filial və nümayəndəliyinin rəhbəri və onun müavini vəzifəsini tutduqda;
6.Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda;
7.Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrində əyani formada, habelə peşə təhsili və ümumi təhsil müəssisələrində təhsil aldıqda.

A) 1,2,4,5,6

B) 2,3,4,5,6

C) 2,3,4,5,7

D) 1,2,3,4,5

E) 1,2,3,4,5,6,7

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

21.
Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq və haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müvəqqəti yaşamaq üçün icazə ilə yanaşı, hansı icazəni də almalıdırlar?

A) Turizm icazəsi

B) Səfər icazəsi

C) İş icazəsi

D) Fəaliyyət icazəsi

E) Sahibkarlıq icazəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

22. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər iş icazəsini kimlər vasitəsilə alırlar? Tam və düzgün cavabı müəyyən edin.
1.Onları işə cəlb edən hüquqi şəxslər;
2.Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;
3.Xarici hüquqi şəxslərin filialları;
4.Xarici hüquqi şəxslərin nümayəndəlikləri;
5.Mərkəz və yerli icra hakimiyyəti orqanları.

A) 1,2,3,4,5

B) 1,3,4,5

C) 1,2,4,5

D) 1,2,3,4

E) 2,3,4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

23. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmalarına icazə verən rəsmi sənəd necə adlandırılır?

A) Əmək icazəsi

B) İş icazəsi

C) Fəaliyyət icazəsi

D) Daimi yaşamaq icazəsi

E) Biznes icazəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

24. İş icazəsi hansı biri tərəfindən verilir?

A) Dövlət Sərhəd Xidməti

B) Nazirlər Kabineti

C) müvafiq icra hakimiyyəti orqanı

D) Dövlət Əmək Müffətişliyi Xidməti

E) yerli icra hakimiyyəti orqanı

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

25. İş icazəsinin verilməsi hansı sərhədlər çərçivəsində həyata keçirilir?

A) Müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən əmək miqrasiyası kvotası çərçivəsində

B) Beynəlxalq Əmək Miqrasiyası təşkilatlarının tələb və tövsiyələri çərçivəsində

C) Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin tələb və təklifləri çərçivəsində

D) Müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş illik iş planı çərçivəsində

E) Azərbaycan Respublikası ilə bağlanmış dövlətlərarası müqaviələlər çərçivəsində

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

26. Yerli əmək ehtiyatlarından səmərəli istifadə edilməsi və əmək miqrasiyası proseslərinin tənzimlənməsi sahəsindəki işlərin effektivliyinin artırılması məqsədi ilə tətbiq edilir?

A) İş icazəsi

B) Əmək miqrasiyası kvotası

C) Sərhədkeçmə məhdudiyyəti

D) Daimi yaşamaq kvotası

E) Müvəqqəti yaşamaq kvotası

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

27. Əmək bazarının kvotası hansı amillər nəzərə alınmaqla müəyyən edilir? Tam və düzgün cavabı müəyyən edin.
1.Daxili əmək bazarının vəziyyəti;
2.İşçi qüvvəsinə tələbatı;
3.İş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğu;
4.Məşğulluq xidməti orqanlarının işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanı;
5.Yüksək ixtisaslı əcnəbi mütəxəssislərin cəlb edilməsi zəruriliyi;
6.Xarici iqtisadi əlaqələrin mövcudluğunun yoxlanılması.

A) 1,2,3,4

B) 1,2,3,4,5,6

C) 2,3,4,5,6

D) 2,3,4,5

E) 1,2,3,4,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

28. Əmək miqrasiyası kvotasının müəyyən edilməsi qaydası hansı subyekt tərəfindən təsdiq edilir?

A) Yerli icra hakimiyyəti orqanı

B) Milli Məclis

C) Nazirlər Kabineti

D) Müvafiq icra hakimiyyəti orqanı

E) Dövlət Miqrasiya Xidməti

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

29. İş icazəsi blankının hansı xüsusiyyətləri olmalıdır?

A) Xüsusi bir tələb müəyyən olunmamışdır

B) Qeydiyyat jurnallarında qeydiyyat alınmaqla paylanılmalıdır.

C) Dəvətnamələr və digər qeydiyyatı tələb olunmayan göndərişlər kimi saxlanılmalıdır.

D) Arayış statusunda olmaqla qeydiyyata alınmalı və adi qaydada çap edilməlidir.

E) Ciddi hesabat sənədi kimi qeydiyyat seriyası və nömrəsi, habelə qiymətli kağızların səviyyəsində qoruyucu nişanları olmalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

30. İş icazəsinin təsviri, spesifikasiyası və nümunəsi hansı subyekt tərəfindən təsdiq edilir?

A) Yerli icra hakimiyyəti orqanı

B) Milli Məclis

C) Nazirlər Kabineti

D) Müvafiq icra hakimiyyəti orqanı

E) Dövlət Miqrasiya Xidməti

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

31. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, hansı müddət ərzində bu barədə icazə alınması üçün müraciət etməlidirlər?

A) Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşama icazəsinin müddətinin bitməsinə ən azı 15 gün qalmış

B) Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşama icazəsinin müddətinin bitməsinə ən azı 40 gün qalmış

C) Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşama icazəsinin müddətinin bitməsinə ən azı 3 ay qalmış

D) Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşama icazəsinin müddətinin bitməsinə ən azı 2 ay qalmış

E) Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşama icazəsinin müddətinin bitməsinə ən azı 1 ay qalmış

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

32. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, bu barədə icazə alınması üçün hara müraciət etməlidirlər?

A) Müvafiq icra hakimiyyəti orqanına

B) Nazirlər Kabinetinə

C) Dövlət Gömrük Komitəsinə

D) Dövlət Əmək Müffətişliyi Xidmətinə

E) Milli Məclisə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

33. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında daimi yaşamaq üçün kimlər vasitəsilə müraciət edirlər?

A) Yalnız şəxsən

B) Şəxsən və ya qanuni nümayəndələri vasitəsi ilə

C) Yalnız qanuni nümayəndələri vasitəsi ilə

D) Yalnız diplomatik nümayəndəlikləri vasitəsi ilə

E) Yerli hüquqi şəxslər vasitəsi ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

34. 14-18 yaşı olan uşağın Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazəsi hansı qaydada alınır?

A) Özünün müraciəti əsasında

B) Onun razılığı alınmaqla, yaxın qohumlarının əsasında

C) Onun razılığı alınmamaqla, xüsusui nümayəndənin müraciəti əsasında

D) Onun razılığı alınmaqla, valideyninin və ya digər qanuni nümayəndəsinin müraciəti əsasında

E) Onun razılığı alınmadan valideyninin və ya digər qanuni nümayəndəsinin müraciəti əsasında

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

35. 14 yaşına çatmamış uşağın Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazəsi kimin müraciəti əsasında alınır?

A) yalnız valideyninin müraciəti əsasında

B) Yalnız qanuni nümayəndəsinin müraciəti əsasında

C) Şəxsi müraciəti əsasında

D) Qohumluq əlaqəsi olan şəxslərin müraciəti əsasında

E) Valideyninin və ya digər qanuni nümayəndəsinin müraciəti əsasında

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

36. Aşağıdakı hallardan hansılar müvafiq icra hakimiyyəti orqanı tərəfindən əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə verilmir (müddəti uzadılmır), əvvəl verilmiş icazə isə ləğv edilir?
1.Azərbaycan Respublikasının milli təhlükəsizliyinə və ya ictimai asayişə zərər vurula biləcəyi hallarda;
2.Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəlik virusu daşıyıcısı olduqda (Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olanlar istisna olmaqla);
3.Şəxsiyyətini təsdiq edən sənədləri olmadıqda və ya bu Məcəllənin 53-cü maddəsində nəzərdə tutulan sənədlərdən biri və ya bir neçəsi təqdim edilmədikdə;
4.Azərbaycan Respublikasında daimi yaşamaq icazəsi almaq üçün saxta sənədlər təqdim edildikdə və ya yalan məlumatlar verildikdə;
5.Qəsdən ağır və ya xüsusilə ağır cinayət törətdiyinə görə məhkum olunduqda, əgər məhkumluğu

qanunla müəyyən edilmiş qaydada ödənilməmişdirsə və ya götürülməmişdirsə;
6.Özlərinin və onlarla gələn ailə üzvlərinin minimal tələbatını ödəyə bilən vəsaiti olmadıqda.

A) 1,2,3,4

B) 1,2,3,4,5,6

C) 1,2,3,5,6

D) 2,3,4,5,6

E) 1,2,3,4,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

37. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün əsas şərtlər hansılardan ibarətdir? Tam və düzgün cavabı müəyyən edin.
1.İş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ya ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğundan;
2.məşğulluq xidməti orqanları tərəfindən işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanının olmamasından;
3.Şəxsin aztəminatlı olması və öz ölkəsində müvafiq işlə təmin oluna bilməməsindən;
4.Şəxsin ikitərəfli diplomatik əlaqələr mövcud olan ölkələrin vətəndaşı olmasından;

A) 1,2,3

B) 2,3

C) 2,3,4

D) 1,3,4

E) 1,2

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

38. Hansı yaşa çatmış əmək qabiliyyətli hər bir əcnəbi və vətəndaşlığı olmayan şəxs Mqirasiya Məcəlləsi ilə müəyyən edilmiş qayda və şərtlərlə onu işə cəlb edən hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsi ilə iş icazəsi aldıqdan sonra Azərbaycan Respublikasında işləyə bilər?

A) 16 yaşına çatmış

B) 15 yaşına çatmış

C) 18 yaşına çatmış

D) 14 yaşına çatmış

E) 21 yaşına çatmış

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

39. Daxili əmək bazarının tələbatı nəzərə alınmaqla, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına əmək miqrasiyasına hansı biri tərəfindən ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə məhdudiyyət qoyula bilər?

A) Dövlət Əmək Müfəttişliyi Xidməti

B) Müvafiq icra hakimiyyəti orqanı

C) İqtisadiyyat Nazirliyi

D) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

E) Dövlət Məşğulluq Xidməti

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

40. Aşağıdakılardan hansılar əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasında işə cəlb edə bilərlər? Tam və doğru cavabı müəyyən edin.

A) Hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri

B) Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri

C) Hüquqi şəxslər, bütün fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri

D) Hüquqi şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri

E) Hüquqi şəxslər, hüquqi şəxs yaratmadan qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici ölkələrin dini icmalarının nümayəndəlikləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

41. Hansı halda əcnəbilər və vətəndaşlığı olmayan şəxslə Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul ola bilərlər?

A) Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2 aydan çox ölkədə yaşadıqda

B) Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 6 aydan çox ölkədə yaşadıqda

C) Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 3 aydan çox ölkədə yaşadıqda

D) Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər iş icazəsi aldıqdan sonra

E) Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər iş icazəsi üçün müraciət etdikdə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

42. Hansı halda işə cəlb edilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin pasportlarının və ya şəxsiyyətlərini təsdiq edən digər sənədlərinin hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri tərəfindən götürülərək saxlanılması mümkündür?

A) Saxlanılması mümkünür

B) Saxlanılması qadağandır

C) 10 gün müddətində saxlaya bilər

D) Şəxsin öhədiliyi yoxdursa saxlanılması qadağandır

E) Şəxsin öhədiliyi varsa, saxlanılması mümkündür

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

43. Aşağıdakı hallardan hansılarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur? Tam və düzgün cavabı müəyyən edin.
1.Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazəsi olanlara;
2.Azərbaycan Respublikasının ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara;
3.Diplomatik nümayəndəlik və konsulluqlarda işləyənlərə;
4.Beynəlxalq təşkilatlarda işləyənlərə;
5.Beynəlxalq müqavilələr əsasında yaradılmış təşkilatların rəhbərlərinə və onların müavinlərinə.

A) 1,2,3,4

B)  2,3,4,5

C) 1,2,3,5

D) 1,2,3,4,5

E) 1,2,4,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

44. Aşağıdakı hallardan hansılarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur? Tam və düzgün cavabı müəyyən edin.
1.Müvafiq icra hakimiyyəti orqanları tərəfindən işə cəlb edilənlərə;
2.Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə xidmətə və ya işə dəvət olunan hərbi qulluqçulara və mütəxəssislərə;
3.Kütləvi informasiya vasitələrinin Azərbaycan Respublikasında akkreditə olunmuş əməkdaşlarına;
4.Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyət sahələri üzrə il ərzində 90 gündən çox olmayan müddətdə Azərbaycan Respublikasında ezamiyyətdə olanlara;
5.Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyət sahələri üzrə işlərin görülməsi və ya xidmətlərin göstərilməsi üçün Azərbaycan Respublikasının vətəndaşları və ya Azərbaycan Respublikasında təsis edilmiş hüquqi şəxslər tərəfindən dəvət edilmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi kateqoriyaya aid mütəxəssislərə.

A) 1,2,3,4,5

B) 1,2,3,4

C) 2,3,4,5

D) 1,2,4,5

E) 1,2,3,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

45. Aşağıdakı hallardan hansılarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur? Tam və düzgün cavabı müəyyən edin.
1.Xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı filial və nümayəndəliyinin rəhbərləri və onların müavinlərinə;
2.Azərbaycan Respublikasında təsis edilmiş və təsisçisi və ya təsisçilərdən ən azı biri xarici hüquqi və ya fiziki şəxs olan hüquqi şəxslərin rəhbərləri və onların müavinlərinə;
3.Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olanlara, bu şərtlə ki, həmin vətəndaş Azərbaycan Respublikasının ərazisində yaşayış yeri üzrə qeydiyyatda olsun;
4.Qaçqın statusunun verilməsi üçün vəsatət verən, qaçqın statusu almış və ya siyasi sığınacaq verilmiş şəxslərə;
5.İnsan alverindən zərər çəkmiş hesab edilən və ya cinayət təqibi orqanlarına yardım göstərən

şəxslərə;
6.Azərbaycan Respublikasında 3 aydan artıq yaşayan şəxslərə;
7.Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hallarda əmək fəaliyyətinə cəlb olunan şəxslərə.

A) 1,2,3,4,5

B) 1,2,3,4,5,7

C) 1,2,3,4,5,6

D) 1,2,3,4

E) 2,3,4,5,6,7

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

46. Azərbaycan Respublikasının ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara iş icazəsinin alınması haqqında hansı formada həyata keçirilir?

A) Əmək kvotasının tələblərinə əsasən həyata keçirilir

B) Bu şəxslərə iş icazəsinin alınması tələbə olunmur

C) Bu şəxslərə lisenziya təqdim olunur

D) Bu şəxslərin sahibkarlıq fəaliyyətinə icazə verilmir

E) Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə iş icazəsinin verilməsi qadağandır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

47. İş icazəsi almaq üçün işəgötürən sənədləri hansı birinə təqdim etməlidir?

A) Nazirlər Kabinetinə

B) Daxili İşlər Nazirliyinə

C) Dövlət Əmək Müfəttişliyi Xidmətinə

D) Yerli icra hakimiyyəti orqanına

E) Müvafiq icra hakimiyyəti orqanına

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

48. İş icazəsi almaq üçün işəgötürən hüquqi şəxs olduqda müvafiq icra hakimiyyəti orqanına hansı sənədləri təqdim etməlidir?

A) Hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin əslini

B) Vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin notariat qaydasında təsdiq edilmiş surətlərini

C) Hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin notariat qaydasında təsdiq edilmiş surətlərini

D) İşəgötürənin vergi ödəyicisinin uçotuna alınması haqqında şəhadətnamənin əslini

E) İşəgötürənin vergi və digər öhdəlikləri barədə statistik məlumatlar haqqında arayışı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

49. İş icazəsi almaq üçün işəgötürən fiziki şəxs olduqda müvafiq icra hakimiyyəti orqanına hansı sənədləri təqdim etməlidir?

A) Sahibkarlıq fəaliyyəti ilə məşğul olması haqqında arayışı

B) Fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin və fiziki şəxsə verilmiş vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin notariat qaydasında təsdiq edilmiş surətlərini

C) Fiziki şəxsin vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin əslini

D) İşəgötürənin vergi və digər öhdəlikləri barədə statistik məlumatlar haqqında arayışı

E) Yalnız şəxsiyyətini təsdiq edən sənədin surətini

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

50. Aşağıdakı hallardan hansılarda əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsindən imtina edilir? Tam və düzgün cavabı müəyyən edin.
1.Miqrasiya Məcəlləsində nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə;
2.Təqdim edilən sənədlər saxta olduqda, onlarda qeyri-dəqiq və ya təhrif olunmuş məlumatlar olduqda;
3.İşəgötürənin işçi qüvvəsinə olan tələbatının yerli əmək ehtiyatları hesabına ödənilməsi mümkün olduqda;
4.İşə cəlb olunması nəzərdə tutulan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin 16 yaşı tamam olmadıqda;
5.Əmək miqrasiyası kvotası dolmadıqda;

6.Əcnəbi və vətəndaşlığı olmayan şəxs siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş yoluxucu xəstəliklərin daşıyıcısı olduqda.

A) 1,2,3,4,5

B) 2,3,4,5,6

C) 1,2,3,6

D) 1,3,4

E) 1,2,3,4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

51. Aşağıdakı hallardan hansılarda əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsindən imtina edilir? Tam və düzgün cavabı müəyyən edin.
1.Əcnəbi və vətəndaşlığı olmayan şəxs cəlb olunduğu işin yerinə yetirilməsi üçün tələb olunan ixtisasa və ya iş təcrübəsinə malik olmadıqda;
2.Təqdim edilən sənədlər saxta olduqda, onlarda qeyri-dəqiq və ya təhrif olunmuş məlumatlar olduqda;
3.İşəgötürənin işçi qüvvəsinə olan tələbatının yerli əmək ehtiyatları hesabına ödənilməsi mümkün olmadıqda;
4.İşə cəlb olunması nəzərdə tutulan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin 18 yaşı tamam olmadıqda;
5.Əmək miqrasiyası kvotası dolduqda;
6.Əcnəbi və vətəndaşlığı olmayan şəxs siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş yoluxucu xəstəliklərin daşıyıcısı olduqda.

A) 1,2,3,4,5,6

B) 1,2,4,5,6

C) 2,3,4,5,6

D) 1,2,3,4,5

E) 2,3,4,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

52. Aşağıdakı hallardan hansı biri əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsindən imtina edilməsi üçün əsas deyildir?

A) Əmək miqrasiyası kvotası dolduqda

B) İşə cəlb olunması nəzərdə tutulan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin 18 yaşı tamam olmadıqda

C)  əcnəbi və vətəndaşlığı olmayan şəxs siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş yoluxucu xəstəliklərin daşıyıcısı olduqda

D)  işəgötürənin işçi qüvvəsinə olan tələbatının yerli əmək ehtiyatları hesabına ödənilməsi mümkün olmadıqda

E) təqdim edilən sənədlər saxta olduqda, onlarda qeyri-dəqiq və ya təhrif olunmuş məlumatlar olduqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

53. Aşağıdakı hallardan hansı biri əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsindən imtina edilməsi üçün əsas deyildir?

A) Əcnəbi və vətəndaşlığı olmayan şəxs cəlb olunduğu işin yerinə yetirilməsi üçün tələb olunan ixtisasa və ya iş təcrübəsinə malik olmadıqda

B) əcnəbi və vətəndaşlığı olmayan şəxs siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş yoluxucu xəstəliklərin daşıyıcısı olduqda

C) Təqdim edilən sənədlər saxta olduqda, onlarda qeyri-dəqiq və ya təhrif olunmuş məlumatlar olduqda

D) Əcnəbi və vətəndaşlığı olmayan şəxs siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş yoluxucu xəstəliklərin daşıyıcısı olduqda

E) Əmək miqrasiyası kvotası doldnmadıqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

54. İş icazəsinin verilməsi üçün tələb olunan sənədlər hansı müraciət formasında təqdim edilə bilər?

A) xüsusi bildiriş

B) mobil rabitə vasitəsilə

C) yazılı və ya elektron

D) yalnız elektron

E) yalnız yazılı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

55. Təqdim olunmuş sənədlərdə çatışmazlıq, uyğunsuzluq və digər nöqsanlar aşkar edildikdə, bu halda....

A) müvafiq icra hakimiyyəti orqanı işəgötürənə bu barədə yazılı məlumat verir

B) müvafiq icra hakimiyyəti orqanı iş icazəsinin verilməsindən imtina edir

C) müvafiq icra hakimiyyəti orqanı işəgötürənə bu barədə şifahi xəbərdarlıq edir

D) müvafiq icra hakimiyyəti orqanı işəgötürənin müraciətini ləğv edir

E) müvafiq icra hakimiyyəti orqanı heç bir bildiriş vermədən iş icazəsinin verilməsindən imtina edir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

56. İş icazəsi ilə bağlı daxil olmuş müraciətlərə hansı müddətdə baxılır?

A) 10 iş günü müddətində

B) "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ödədiyi dövlət rüsumunun məbləğinə müvafiq olaraq həmin qanunda nəzərdə tutulmuş müddətdə

C) 30 iş günü müddətində

D) "Vətəndaş müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddətdə

E) Müvafiq icra hakimiyyətinin təsdiq etdiyi reqlamentdə nəzərdə tutulmuş müddətdə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

57. Müvafiq icra hakimiyyəti orqanı iş icazəsinin verilməsi ilə bağlı daxil olmuş məlumatlara hansı müddət ərzində baxaraq rəy verir?

A) 2 iş günü müddətində

B) 7 iş günü müddətində

C) 15 iş günü müddətində

D) 3 iş günü müddətində

E) 5 iş günü müddətində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

58. Müvafiq icra hakimiyyəti orqanı daxil olmuş məlumatlara müəyyən edilmiş müddətdə baxaraq, hansı rəy verir?

A) İşəgötürənin fəaliyyətinin qənaətbəxş olub-olmaması bağlı

B) İşəgötürənin hüquqi şəxs kimi qeydiyyatının olub-olmaması ilə bağlı

C) İşəgötürənin daxili tələbatının xarici imkanlar hesabına ödənilməsinin mümkün olub-olmaması ilə bağlı

D) İşəgötürənin işçi qüvvəsinə olan tələbatının yerli əmək ehtiyatları hesabına ödənilməsinin mümkün olub-olmaması ilə bağlı

E) İşəgötürənin vergi öhdəliklərinin olub-olmaması ilə bağlı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

59.

Müvafiq icra hakimiyyəti orqanının iş icazəsinin verilməsi ilə bağlı müraciətə müəyyən edilmiş müddətdə rəy bildirməməsi necə qəbul edilir?

A) İş icazəsinin verilməsinə etiraz olunması kimi

B) İş icazəsinin verilməsinə etiraz olunmadığı kimi

C) İş icazəsinin verilməsinin 10 iş günü müddətində verilməsi kimi

D) İş icazəsinin ləğv olunması kimi

E) İş icazəsinin verilməsinin təxirə salınması kimi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

60. Müvafiq icra hakimiyyəti orqanının iş icazəsinin verilməsi ilə bağlı müraciətə hansı müddət ərzində rəy bildirməməsi iş icazəsinin verilməsinə etiraz olunmadığı kimi qəbul edilir?

A)  7 iş günü ərzində

B)  2 iş günü ərzində

C)  5 iş günü ərzində

D)  15 iş günü ərzində

E) 10 iş günü ərzində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

61. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən iş icazəsinin verilməsindən imtina barədə qərarın surətini hansı birinə təqdim edilməlidir?

A) İşəgötürənə

B) Əcnəbi və vətəndaşlığı olmayan şəxsə

C) Müvafiq icra hakimiyyəti orqanına

D) Yerli icra hakimiyyəti orqanına

E) Dövlət Miqrasiya Xidmətinə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

62. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən iş icazəsinin verilməsindən imtina barədə qərar hansı normativ hüquqi akta əsaslandırılmalıdır?

A) Əmək Məcəlləsinə

B) Mülki Məcəlləyə

C) İnzibati Xətalar Məcəlləsinə

D) Mülki prosessual Məcəlləyə

E) Miqrasiya Məcəlləsinə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

63. İşəgötürən iş icazəsinin verilməsindən imtinaya əsas olmuş hallar aradan qalxdıqdan sonra iş icazəsi almaq üçün hansı normativ hüquqi akta uyğun olaraq yenidən müraciət edə bilər?

A) Miqrasiya Məcəlləsinə

B) Əmək Məcəlləsinə

C) Mülki Məcəlləyə

D) İnzibati Xətalar Məcəlləsinə

E) Mülki prosessual Məcəlləyə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

64. İşəgötürən həmin şəxslərin ölkədə qanuni əsaslarla qaldıqları və ya yaşadıqları müddətdə müvafiq icra hakimiyyəti orqanına yenidən müraciət edərsə, hansı sənədi təqdim edir?

A) İş icazəsinin alınması üçün tələb olunan sənədləri

B) Yalnız iş icazəsi verilməsindən imtina üçün əsas olan halın aradan qalxdığını təsdiq edən sənədi

C) Heç bir sənəd tələb olunmur

D) Yalnız zəruri olan sənədlərin surəti

E) İşəgötürənin hüquqi şəxs olan fəaliyyətini təsdiq edən sənədlərin surəti

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

65. İş icazəsinin verilməsi haqqında qərar qəbul edildikdə, müvafiq icra hakimiyyəti orqanı hansı müddət ərzində iş icazəsinin müəyyən olunmuş qaydada doldurulmasını və işəgötürənə təqdim olunmasını təmin edir?

A) 10 iş günü müddətində

B) 15 iş günü müddətində

C) 3 iş günü müddətində

D) 6 iş günü müddətində

E) 5 iş günü müddətində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

66. İş icazəsi hansı qaydada təsdiq edilir?

A) Müvafiq icra hakimiyyəti orqanının cavabdeh nümayəndəsi tərəfindən imzalanır və həmin orqanın möhürü ilə təsdiq olunur

B) Yerli icra hakimiyyəti orqanının rəhbəri tərəfindən imzalanır və həmin orqanın möhürü ilə təsdiq olunur

C) Yalnız müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən imzalanır və həmin orqanın möhürü ilə təsdiq olunur

D) Müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli vəzifəli şəxsi tərəfindən imzalanır və həmin orqanın möhürü ilə təsdiq olunur

E) Müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli vəzifəli şəxsi tərəfindən imzalanır və Miqrasiya Xidmətinin möhürü ilə təsdiq olunur

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

67. İş icazəsi bu icazəni almaq üçün müraciət edən işəgötürənə nə vaxt verilir?

A) Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd hazırlanadək

B) 10 iş günü müddətində

C) 5 iş günü müddətində

D) Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim edilənədək

E) Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim olunduqdan sonra

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

68. İşəgötürən tərəfindən hansı müddət ərzində iş icazəsinin alınmasına görə dövlət rüsumu ödənilmədikdə, müvafiq icra hakimiyyəti orqanı iş icazəsini ləğv edir?

A) 30 gün müddətində

B) 20 gün müddətində

C) 15 gün müddətində

D) 5 gün müddətində

E) 10 gün müddətində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

69. İş icazəsinin verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması, iş icazəsi blankının fərdi olaraq doldurulması və verilməsi, habelə iş icazəsi almış və ya belə icazənin verilməsindən imtina edilmiş, o cümlədən iş icazəsi ləğv edilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması hansı sistem vasitəsilə aparılır?

A) Vahid Miqrasiya Məlumat Sistemi vasitəsi ilə

B) Mərkəzləşdirilmiş Qeydiyyat Sistemi vasitəsi ilə

C) Elektron hökümət portalı vasitəsilə

D) İdarələrarası Sistem vasitəsilə

E) Xüsusi Miqrasiya Məlumat Bazası vasitəsi ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

70. Hansı halda əcnəbinin və vətəndaşlığı olmayan şəxs iş icazəsinin yenidən rəsmiləşdirilməsi və ya ləğv edilməsi üçün ərizə təqdim etməlidir?

A) Şəxsin şəxsiyyətini təsdiq edən sənədlərindəki məlumatlar dəyişilmədikdə

B) Şəxsin şəxsiyyətini təsdiq edən sənədlərindəki məlumatlar və ya işlədiyi hüquqi şəxsin adı dəyişdikdə və ya iş icazəsi itirildikdə

C) Şəxsin işlədiyi hüquqi şəxsin adı fəaliyyəti genişləndikdə

D) Şəxs təqaüd yaşına çatdıqda və ya əlilliyə görə təqaüdə çıxdıqda

E) Şəxsin vətəndaşı olduğu dövlətlə ikitərəfli münasibətlər dəyişdikdə və ya böhran halları yarandıqda

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

71. Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədlərindəki məlumatlar və ya işlədiyi hüquqi şəxsin adı dəyişdikdə və ya iş icazəsi itirildikdə, hansı tədbir görülməlidir?

A) Onun işəgötürəni 15 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməli və belə icazənin yenidən rəsmiləşdirilməsi və ya ləğv edilməsi üçün ərizə təqdim etməlidir.

B) Onun işəgötürəni 20 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməli və belə icazənin yenidən rəsmiləşdirilməsi və ya ləğv edilməsi üçün ərizə təqdim etməlidir.

C) Onun işəgötürəni 5 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməli və belə icazənin yenidən rəsmiləşdirilməsi və ya ləğv edilməsi üçün ərizə təqdim etməlidir.

D) Onun işəgötürəni 10 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməli və belə icazənin yenidən rəsmiləşdirilməsi və ya ləğv edilməsi üçün ərizə təqdim etməlidir.

E) Onun işəgötürəni 2 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməli və belə icazənin yenidən rəsmiləşdirilməsi və ya ləğv edilməsi üçün ərizə təqdim etməlidir.

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

72.
İş icazəsi itidikdə işəgötürən tərəfindən hansı müddət ərzində müvafiq ərizə təqdim edilmədikdə, əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə verilmiş icazə etibarsız hesab edilir?

A) 2 iş günü müddətində

B) 3 iş günü müddətində

C) 5 iş günü müddətində

D) 10 iş günü müddətində

E) 14 iş günü müddətində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

73.
Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədlərindəki məlumatlar dəyişdikdə işəgötürən tərəfindən hansı müddət ərzində müvafiq ərizə təqdim edilmədikdə, əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə verilmiş icazə etibarsız hesab edilir?

A) 1 ay müddətində

B) 10 gün müddətində

C) 5 iş günü müddətində

D) 5 gün müddətində

E) 10 iş günü müddətində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

74.
Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin işlədiyi hüquqi şəxsin adı dəyişdikdə işəgötürən tərəfindən hansı müddət ərzində müvafiq ərizə təqdim edilmədikdə, əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə verilmiş icazə etibarsız hesab edilir?

A) 10 gün müddətində

B) 7 iş günü müddətində

C) 10 iş günü müddətində

D) 15 iş günü müddətində

E) 15 gün müddətində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

75. İş icazəsinin yenidən rəsmiləşdirilməsi üçün hansı miqdarda dövlət rüsumu ödənilir?

A) Dövlət rüsumu ödənilmir.

B) Minimum əmək haqqının 50 faizi miqdarında

C) 50 manat məbləğində

D) 100 manat məbləğində

E) Alımma müddətinin uyğun məbləğdə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

76. İş icazəsi hansı müddətə verilir?

A) 2 il müddətinə

B) 3 il müddətinə

C) 4 il müddətinə

D) 5 il müddətinə

E) 1 il müddətinə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

77. Əmək müqaviləsinin 1 ildən az müddətə bağlanılması nəzərdə tutulduqda iş icazəsi hansı müddətə verilir?

A) Əmək müqaviləsinin bağlanılması müddətində

B) 6 ay müddətinə

C) 1 il müddətinə

D) 10 ay müddətində

E) Müddətsiz

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

78. İş icazəsinin müddəti hər dəfə hansı müddət gözlənilmək şərti ilə uzadıla bilər?

A) 1 ildən az olmamaq şərti ilə

B) 2 ildən çox olmamaq şərti ilə

C) 2 ildən az olmamaq şərti ilə

D) 1 ildən çox olmamaq şərti ilə

E) 5 ildən çox olmamaq şərti ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

79. İş icazəsinin müddətinin uzadılması üçün işəgötürən hansı müddətdə müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət etməlidir?

A) İş icazəsinin müddətinin bitməsinə azı 5 gün qalmış

B) İş icazəsinin müddətinin bitməsinə azı 15 gün qalmış

C) İş icazəsinin müddətinin bitməsinə azı 30 gün qalmış

D) İş icazəsinin müddətinin bitməsinə azı 20 gün qalmış

E) İş icazəsinin müddətinin bitməsinə azı 10 gün qalmış

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

80. İş icazəsinin müddətinin uzadılması üçün işəgötürən aşağıdakı sənədlərdən hansıları təqdim etməlidir? Tam və düzgün cavabı müəyyən edin.
1.Nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən ərizə-anket;
3.Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin pasportunun və ya digər sərhədkeçmə sənədinin surəti;
3.Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin nəzərdə tutulan işi yerinə yetirmək üçün tələb edilən ixtisasa malik olduğunu təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti;
4.Nəzərdə tutulan iş yeri üçün əcnəbinin və vətəndaşlığı olmayan şəxsin cəlb edilməsi zəruriliyini əsaslandıran arayış;
5.Azərbaycan Respublikasının ərazisində başqa əsaslarla olan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisində qalmasına hüquq verən müvafiq sənədin surəti;
6.Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəliklərin siyahısında nəzərdə tutulmuş xəstəlik virusu daşıyıcısı olmaması haqqında arayış.

A) 1,3,4,6

B) 1,2,3,4

C) 1,2,3,4,5

D) 1,2,3,4,5,6

E) 2,3,4,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

81. İş icazəsinin müddətinin uzadılması hansı qaydada həyata keçirilir?

A) Mülki Məcəllədə nəzərdə tutulmuş qaydada

B) İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada

C) Miqrasiya Məcəlləsində nəzərdə tutulmuş qaydada

D) Mülki prossesual Məcəlləsində nəzərdə tutulmuş qaydada

E) Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

82. İş icazəsinin müddətinin uzadılmasına görə nə vaxt müddəti uzadılmış iş icazəsi işəgötürənə təqdim edilir?

A) Müraciətin təqdim edilməsindən 15 iş günü sonra

B) Müraciətin təqdim edilməsindən 5 iş günü sonra

C) Müraciətin təqdim edilməsindən 10 gün sonra

D) Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim edildikdən əvvəl

E) Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim edildikdən sonra

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

83. İşəgötürən tərəfindən hansı müddət ərzində iş icazəsinin müddətinin uzadılmasına görə dövlət rüsumu ödənilmədikdə müvafiq icra hakimiyyəti orqanı iş icazəsini ləğv edir?

A) 5 gün müddətində

B) 15 gün müddətində

C) 10 iş günü müddətində

D) 30 gün müddətində

E) 10 gün müddətində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

84. Əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsindən imtina olunduqda, bu halda hansı biri edilir?

A) Müvafiq icra hakimiyyəti orqanı iş icazəsi qüvvəsi müəyyən müddətə dayandırılır

B) Müvafiq icra hakimiyyəti orqanı iş icazəsinə verilməsi məsələsinə yenidən baxılır

C) Müvafiq icra hakimiyyəti orqanı iş icazəsinin müddətini azaldır

D) Müvafiq icra hakimiyyəti orqanı iş icazəsinin müddətiniz artırır

E) Müvafiq icra hakimiyyəti orqanı iş icazəsini ləğv edir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

85. Əcnəbi və vətəndaşlığı olmayan şəxs eyni işəgötürənin yanında başqa işə keçirildikdə, hansı tədbir görülməlidir?

A) onun daimi yaşayış yaşamaq icazəsi hüququ ləğv edilməlidir

B) onun üçün iş icazəsi ləğv edilməli və yenisi verilməməlidir

C) onun üçün iş icazəsi əvvəlki iş icazəsinin müddətinə qədər uzadılmalıdır

D) onun üçün yeni iş icazəsi alınmalıdır

E) onun üçün yeni iş icazəsi alınmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

86. Hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) zamanı əcnəbi və vətəndaşlığı olmayan şəxs üçün hansı tədbir görülməlidir?

A) onun üçün yeni iş icazəsi alınmalıdır

B) onun daimi yaşayış yaşamaq hüququ ləğv edilməlidir

C) onun üçün iş icazəsi ləğv edilməli və yenisi verilməməlidir

D) onun üçün yeni iş icazəsi alınmamalıdır

E) onun üçün iş icazəsi əvvəlki iş icazəsinin müddətinə qədər uzadılmalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

87. Əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə eyni işəgötürənin yanında başqa işə keçirilməsi ilə bağlı yeni iş icazəsi verildikdə, həmin iş icazəsinin müddəti  nə qədər olmalıdır?

A) Əvvəlki iş icazəsinin müddətinin qüvvədə qalan hissəsindən az olmamalıdır

B) Bir ildən çox olmamalıdır

C) Bir ildən az olmamalıdır

D) 6 aydan az olmamalıdır

E) Əvvəlki iş icazəsinin müddətinin qüvvədə qalan hissəsindən çox olmamalıdır

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

88. Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin eyni işəgötürənin yanında başqa işə keçirilməsi ilə bağlı yeni iş icazəsi verildikdə hansı miqdarda dövlət rüsumu ödənilir?

A) Əlavə dövlət rüsumu ödənilmir

B) Qanunla müəyyən edilmiş miqdarda ödənilir

C) 100 manat məbləğində

D) 50 manat məbləğində

E) 40 manat məbləğində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

89. Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin iş icazəsinin müddəti bitdikdə və ya əmək müqaviləsi vaxtından əvvəl pozulduqda, onu başqa işəgötürən hansı halda öz yanında işə dəvət edə bilər?

A) Heç bir halda işə dəvət edə bilməz

B) Mövcud iş icazəsinin başa çatmasının sonunadək olmaqla

C) Yeni iş icazəsi almaqla

D) 3 ay müddətindən çox olmamaqla

E) Yeni iş icazəsi alanadək, lakin 2 aydan çox olmamaqla

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

90. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslə işəgötürən arasında bağlanılmış əmək müqaviləsi vaxtından əvvəl pozulduqda, işəgötürən bu barədə hansı müddət ərzində müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir?

A) 3 iş günü ərzində

B) 15 iş günü ərzində

C) 7 iş günü ərzində

D) 5 iş günü ərzində

E) 10 iş günü ərzində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

91. Əmək müqaviləsi vaxtından əvvəl pozulduqda, ....

A) şəxsə verilmiş iş icazəsi 3 ay müddətində qüvvəsini itiri

B) şəxsə verilmiş iş icazəsi 6 ay müddətində qüvvəsini itirir

C) şəxsə verilmiş iş icazəsi 20 iş günü müddətində qüvvəsini itirir

D) şəxsə verilmiş iş icazəsi öz qüvvəsini itirir

E) şəxsə verilmiş iş icazəsi öz qüvvəsini davam etdirir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

92. Əmək müqaviləsi vaxtından əvvəl pozulduqda və əməkçi miqrantın Azərbaycan Respublikasında qalması üçün başqa əsas olmadıqda,...

A) o, 3 iş günü müddətində Azərbaycan Respublikasının ərazisini tərk etməlidir

B) o, 20 iş günü müddətində Azərbaycan Respublikasının ərazisini tərk etməlidir

C) o, 15 iş günü müddətində Azərbaycan Respublikasının ərazisini tərk etməlidir

D) o, 5 iş günü müddətində Azərbaycan Respublikasının ərazisini tərk etməlidir

E) o, 10 iş günü müddətində Azərbaycan Respublikasının ərazisini tərk etməlidir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

93. İş icazəsinin qüvvədə olma qaydalarına nəzarəti hansı biri həyata keçirir?

A) Müvafiq icra hakimiyyəti orqanı

B) Yerli icra hakimiyyəti orqanı

C) Daxili İşlər Nazirliyi

D) Dövlət Əmək Müfəttişliyi Xidməti

E) Dövlət Sosial Müdafiə Fondu

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

94. Nəzarət qaydasında müvafiq icra hakimiyyəti orqanı hansı vəzifələri həyata keçirir? Tam və düzgün cavabı müəyyən edin.
1.Əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən işçi qüvvəsi kimi istifadə edilməsini tənzimləyən normativ hüquqi aktlara və Miqrasiya Məcəlləsinin tələblərinə riayət edilməsini yoxlayır;
2.Yoxlama zamanı ortaya çıxan məsələlər haqqında işəgötürəndən, habelə əcnəbidən və vətəndaşlığı olmayan şəxsdən məlumat və ya arayış alır;
3.Miqrasiya Məcəlləsində nəzərdə tutulmuş hallarda iş icazəsini ləğv edir;
4.İş icazəsi olmadan işə cəlb edilmiş əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri, habelə həmin şəxsləri işə cəlb etmiş işəgötürənləri qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edir;
5.İş icazəsinin verilməsi bilə bağlı normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı tədbirlə planını təsdiq edir.

A) 1,2,3,4,5

B) 1,2,3,4

C) 1,2,3

D) 1,2,3,5

E) 2,3,4,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

95. Hansı biri iş icazəsi ilə bağlı yoxlamanın aparılması üçün zəruri olan normal şərait yaratmağa, tələb olunan sənədləri təqdim etməyə borcludur?

A) Əcnəbi və vətəndaşlığı olmayan şəxslər

B) Dövlət orqanları

C) Yerli icra hakimiyyəti orqanları

D) İşəgötürənlər

E) İxtisaslaşmış müəssisələr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

96. İş icazəsinin yoxlaması nəticəsində qanun pozuntusu aşkar olunduqda,hansı biri tərtib edilir?

A) Bu barədə iki nüsxədən ibarət Akt tərtib edilir

B)  Bu barədə işəgötürənə xəbərdarlıq edilir

C)  Bu barədə iki nüsxədən ibarət protokol tərtib edilir.

D)  Bu barədə Qərar hazırlanır

E)  Bu barədə iki nüsxədən ibarət Arayış hazırlanır

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

97. İş icazəsinin yoxlaması nəticəsində qanun pozuntusu aşkar olunmadıqda,hansı biri tərtib edilir?

A)  Bu barədə iki nüsxədən ibarət protokol tərtib edilir.

B)  Bu barədə Qərar hazırlanır

C)  Bu barədə iki nüsxədən ibarət Arayış hazırlanır

D)  Bu barədə iki nüsxədən ibarət Akt tərtib edilir

E)  Bu barədə işəgötürənə xəbərdarlıq edilir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

98. İş icazəsinin yoxlanılması ilə bağlı tərtib edilən protokolla bağlı aşağıdakı müddəalardan hansı biri doğru deyildir?

A)  Protokolu (aktı) müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli şəxsləri və işəgötürən imzalayırlar.

B) Protokolun (aktın) bir nüsxəsi işəgötürəndə qalır

C) Protokolu (aktı) imzalamaqdan imtina edildikdə, bu barədə həmin sənəddə qeyd edilir

D) Protokola (akta) işəgötürənin izahatı əlavə olunur

E) Protokolun (aktın) hər iki nüsxəsi dövlət orqanında qalır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

99. Nəzarət qaydasında aparılan yoxlamalara digər dövlət orqanlarının nümayəndələri də cəlb edilə bilərmi?

A) Edilə bilməz

B) Yalnız hüquq mühafizə orqanlarının nümaəyəndələri cəlb edilə bilərlər

C) Qeyri-hökümət təşkilatlarının nümaəyəndələri cəlb edilə bilərlər

D) Edilə bilər

E) Qanunvericilikdə belə hal nəzərdə tutulmamışdır

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

100. Aşağıdakı hallardan hansılarda müvafiq icra hakimiyyəti orqanı iş icazəsini ləğv edir?
1.Əcnəbidən və vətəndaşlığı olmayan şəxsdən, yaxud işəgötürəndən müvafiq ərizə daxil olduqda;
2.Əşəgötürənlə əcnəbi və vətəndaşlığı olmayan şəxs arasında bağlanmış əmək müqaviləsi vaxtından əvvəl pozulduqda;
3.İş icazəsi alınması üçün təqdim edilən sənədlərdə düzgün olmayan məlumatlar aşkar edildikdə;
4.İşəgötürən fəaliyyət istiqamətlərini genişləndirildikdə;
5.Hüquqi şəxs olan işəgötürən ləğv edildikdə;
6.Məhkəmənin müvafiq qərarı olduqda.

A) 1,2,3,4,5

B) 1,2,3,4

C) 1,2,3,5

D) 2,3,4,5

E) 1,2,3

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

101. Texniki işçilərin yuxarıya doğru inkişafına şərait yaradır. Bu karyera inkişaf modelini müəyyən edin.

A) Şəbəkə

B) Xüsusi

C) Müasir

D) Cüt pilləli

E) Spiral tipli

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Bingöl. İnsan kaynakları yönetimi. İstanbul, 2016 səh.340

102. Bir işçinin bir peşə daxilində bir işdən başqa birinə yüksələrkən yaş və stajın önəmli olmadığı, təcrübə və işin tələb etdiyi şərtlərin ön planda olduğu karyera yolu necə adlanır?

A) U və spiral tipli

B) Şəbəkə

C) Ənənəvi

D) Cüt rəqəmli

E) Davranış yönümlü

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Bingöl. İnsan kaynakları yönetimi. İstanbul, 2016 səh.340

103. Davranış yönümlü karyera yolu hansıdır?

A) Bir işçinin bir peşə daxilində bir işdən başqa birinə yüksələrkən anket məlumatlarının ön planda olduğu karyera yolu

B) Bir işçinin bir peşə daxilində bir işdən başqa birinə yüksələrkən tövsiyənin ön planda olduğu karyera yolu

C) Bir işçinin bir peşə daxilində bir işdən başqa birinə yüksələrkən onun təltiflərinin ön planda olduğu karyera yolu

D) Bir işçinin bir peşə daxilində bir işdən başqa birinə yüksələrkən təcrübə və işin tələb etdiyi şərtlərin ön planda olduğu karyera yolu

E) Bir işçinin bir peşə daxilində bir işdən başqa birinə yüksələrkən yaş və stajın önəmli olduğu karyera yolu

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Bingöl. İnsan kaynakları yönetimi. İstanbul, 2016 səh.341

104. Davamçıların hazırlanma prosesinin mərhələlərini doğru ardıcıllığını müəyyən edin.
1. Səriştələrin müəyyənləşdirilməsi;
2. Tətbiqetmə və qiymətləndirmə;
3. Öyrənmə və inkişaf planlarının icrası;
4. Kritik vəzifələrin müəyyənləşdirilməsi;

5.Potensial namizədlərin müəyyənləşdirilmə və qiymətləndirilməsi.

A) 4,1,5,3,2

B) 3,2,4,5,1

C) 2,3,5,1,4

D) 2,4,1,3,5

E) 1,2,3,4,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

105. Təlim prosesinin təşkil edilməsinin ilkin mərhələsi hansı biri hesab olnur?

A) Öyrənmə mühitinin formalaşdırılması

B) Təlim metodunun seçilməsi

C) Təlim ehtiyaclarının öyrənilməsi

D) Təlimlərin ötürülməsinin təmin edilməsi

E) Təlim proqramının monitorinqi və qiymətləndirilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

106. Təlim prosesinin təşkil edilməsinin sonuncu mərhələsi hansı biri hesab olnur?

A) Qiymətləndirmə planının formalaşdırılması

B) İşçilərin təlimlər üçün hazırlıqlı olub olmamasının müəyyənləşdirilməsi

C) Təlimlərin ötürülməsinin təmin edilməsi

D) Təlim proqramının monitorinqi və qiymətləndirilməsi

E) Təlim ehtiyaclarının öyrənilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

107. 360 dərəcə  metodu:

A) İşçilərin yaxşıdan pisə doğru qiymətləndirilərək sıralanması

B) İşçinin daimi olaraq performansı ilə bağlı rəhbər, həmkar və müştərilərdən rəy alması

C) Müəyyən edilmiş tapşırıqlarının icra edilməsi ilə bağlı işçilərin fəaliyyətinin qiymətləndirilməsi

D) İşçinin bilik və bacarıqlarının müəyyən edilmiş meyarlar üzrə yoxlanılması

E) İşin xüsusiyyətlərindən asılı olaraq işçinin işinin qiymətləndirilməsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Z. Sabuncuoğlu. İnsan kaynakları yönetimi. İstanbul,2013

108. Kritik vəzifələr hansı vəzifələri əhatə edir?

A) Yüksək əmək haqqı və digər imtiyazları olan vəzifələr

B) Siyasi kateqoriyaya aid edilmiş vəzifələr

C) Cəmiyyətə  və şirkətə əhəmiyyətli dərəcədə təsir etmə imkanı olan, vakant olduqda doldurulması çətin olan vəzifələr

D) Xüsusi zehni əmək və fiziki güc tələb edən vəzifələr

E) Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin tutduqları vəzifələr

Testin çətinlik dərəcəsi: orta

İstinad:   İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Bakı,2017

109. Bir mənfi cəhətin və ya hadisənin bütün müsbət cəhətləri üstələməsidir:

A) Mərkəzə qaçma effekti (Central tendency)

B) Buynuz effekti

C) Halo effekti

D) Əks effekt (Contrast effect)

E) İlkin effekt (primacy effect)

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

110. Aşağıdakılardan hansılar qeyri-maddi mükafatlandırmalara nümunə olaraq göstərilə bilər?

A) İşçinin əlavə maaş artımı

B) İşçinin ixtisas dərəcəsinin artımı

C) İşçinin təlimlərə göndərilməsi

D) İşçinin övladlarının təhsil haqqının ödənilməsi

E) İşçinin güzəştli mənzillə təmin edilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.İsgəndərov, M.Əsgər, N.Şıxəliyev. İnsan resursları menecmenti. Bakı, 2017, səh, 207

111. İşçilərin fəaliyyətinin müəyyən edilmiş tələblərə uyğun olaraq ölçülməsi prosesidir?

A) Performans qiymətləndirilmə

B) Karyera planlama

C) Təlim ehtiyaclarının öyrənilməsi

D) Rəhbər qiymətləndirməsi

E) 360 dərəcə qiymətləndirmə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

112. İşəgötürənlər tərəfindən əməkçi miqrantların hüquqlarının təmin edilməsinə nəzarəti hansı biri həyata keçirir:

A) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

B) Dövlət Əmək Müfəttişliyi Xidməti

C) Nazirlər Kabineti

D) müvafiq icra hakimiyyəti orqanı

E) yerli icra hakimiyyəti orqanı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Əmək Məcəlləsi

113. Əmək münasibətləri sahəsində Azərbaycan Respublikasının vətəndaşlarına nisbətən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə daha üstün hüquqların müəyyən edilməsi hansı hallarda mümkündür?

A) Qanunla müəyyən edilmiş halda

B) Müvafiq icra hakimiyyətinin müəyyən etdiyi qaydada

C) işəgötürənin tələbatına uyğun olduğu halda

D) hər bir halda

E) yolverilməzdir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Əmək Məcəlləsi

114. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, o cümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi hansı tərəfindən həyata keçirilir?

A) Nazirlər Kabineti

B) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

C) Milli Məclis

D) Azərbaycan Respublikasının Prezidenti

E) Dövlət Miqrasiya Xidməyti

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli qərarı

115. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün Ərizə-anketdə hansı məlumatlar göstərilmir?

A)  Soyadınız, adınız və atanızın adı

B) Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq istəyinizin səbəbləri

C) Miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozduğunuza görə inzibati məsuliyyətə cəlb edilmə

D) Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə almaq məqsədilə saxta sənədlərin və ya yalan məlumatların təqdim edilməsi Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazənin verilməməsinə (müddətinin uzadılmamasına), verilmiş icazənin isə ləğv edilməsinə səbəb olur.

E) Dini mənsubiyyəti və dünyagörüşü haqqında məlumatlar

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli qərarı

116. İl ərzində 90 gündən çox olmayan müddətdə Azərbaycan Respublikasında ezamiyyətdə olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmayan fəaliyyət sahələrinin siyahısına hansı sahə daxil deyil?

A) Mədənçıxarma sənayesi

B) Emal sənayesi

C) Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat

D) Ticarət və ictimai iaşə

E) İnformasiya və rabitə

Testin çətinlik dərəcəsi: orta

İstinad:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 4 dekabr tarixli 387 nömrəli qərarı

117. İl ərzində 90 gündən çox olmayan müddətdə Azərbaycan Respublikasında ezamiyyətdə olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmayan fəaliyyət sahələrinin siyahısına hansı sahə daxil deyil?

A) Elm

B) Maliyyə və sığorta

C) Nəqliyyat

D) Su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi

E) İnformasiya və rabitə

Testin çətinlik dərəcəsi: orta

İstinad:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 4 dekabr tarixli 387 nömrəli qərarı

118. İş təsvirlərində ümumi olaraq aşağıdakı başlıqlardan hansılar göstərilir? Tam və düzgün cavabl müəyyən edin.
1.İşin adı/vakansiya adı;
2.Əmək haqqı ödənişi;

3.İş yeri;
4.İşəgötürənin adı/rəhbərin adı;
5. Subordinasiya üzrə işçilərin məlumatları;
6.İşin əsas məqsədi;
7.Vəzifə öhdəliklərinin siyahısı;
8.Digər sənədlərə istinad edilməsi.

A) 1,2,3,4,6,7

B) 1,2,3,4,7,8

C) 1,2,3,4,5,6,7,8

D) 1,2,3,4,5,6,7

E) 1,2,3,4,5,6

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

119. Müsahibə götürənlər öz beyinlərində formalaşdırdıqları insan tipinə rast gəlmək istədikləri üçün digər namizədləri uyğun görməyərək müsabiqədən uzaqlaşdırırlar. Söhbət hansı effetkdən gedir?

A) Prototip effekti

B) Əks effekt

C) İlkin effekti

D) Fikri təsdiqetmə effekti

E) Stereotip effekti

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

120. Müsahibə götürənlər bəzən təhsil, iş təcrübəsi və ya karyerası özlərinə oxşar insanlara meyl göstərə bilirlər. Bu hansı effektdir?

A)  Oxşar karyera effekti

B) Fikri təsdiqləmə effekti

C) Əks effekt

D) İlkin effekti

E) Stereotip effekti

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

121. İlkin seçimdən sonra artıq növbəti mərhələyə keçən namizədlərin bir sıra testlər vasitəsilə bilikləri qiymətləndirilə bilər. Bu testlər davranış, bilik, psixoloji, situasiya, emosional zəkanı ölçə biləcək tetslərdir ki, bununla da namizədin nəinki hazırki performansını, hətta gələcəkdə göstərə biləcək perfor-mansını ölçmək mümkündür. Bu mərhələdən sonra namizədlər hansı mərhəldən keçə bilər?

A) Yalnız fiziki əmək tələb edən fiziki sınaq və müsahibələrdə

B) Yalnız əl əməyini tələb edən peşə sınağında

C) Birbaşa iş yeri ilə tanış olma

D) Yalnız müsahibələrdə

E) Əl əməyini tələb edən peşə sınağı, fiziki əmək tələb edən fiziki sınaq və müsahibələrdə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

122. Bu testlər işçilərin iş zamanı qarşılaşa biləcəkləri situasiya və bu zaman verəcəkləri qərarların ortaya çıxarılması üçün tətbiq edilir. Söhbət hansı testlərdən gedir?

A) Situativ testlərdən

B) Dürüstlük testlərindən

C) İdrak qabiliyyətinin yoxlanılması testlərindən

D) Qapalı tipli testlərdən

E) Psixoloji testlərdən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

123. Bir sıra mental bacarıqları, yazı və riyazi bilikləri, oxuma və anlama qabiliyyət-ləri ölçülür. Bu yoxlamalar işçinin gələcəkdəki performansının proqnoz edilməsində vacib rola malikdir. Bu hansı testlərdir?

A) Qapalı tipli testlər

B) İdrak qabiliyyətinin yoxlanılması üzrə testləri

C) Situativ testlər

D) Psixoloji testlər

E) Dürüstlük testləri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

124. Bu müsahibə zamanı namizəd bir neçə mütəxəssis tərəfindən qiymətləndirilir. Bu müsahibə növünün əsas məqsədi subyektivliyi aşağı salmaqdır. Kollektiv şəkildə qərar qəbul edilir və hər bir üzv işçiyə suallar verə bilər. Suallar verilərkən üzvlərdən biri qeydlər götürə, digəri isə namizədin bədən dili davranışlarını izləmə imkanı əldə edə edir. Bu müsahibələr hansıdır?

A) Səriştə müsahibələri

B) Panel müsahibələr

C) Stress müsahibələr

D) Davranış müsahibələri

E) Keys müsahibələr

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

125. Bu müsahibələrdə namizədin iş ilə əlaqəli texniki/funksional bacarıqları yoxlanılır. Nümunə olaraq, tərcüməçi alman dili vakansiyası üçün müsahibə edilirsə, onu alman dilində müsahib etmək və ya müsahibə zamanı tərcümə etməsi üçün qısa məqalə vermək mümkündür. Bu növ müsahibə yalnız kiçik mütəxəssis vakansiyaları üçün müraciət edən namizədlərin funksional səriştələrinin yoxlanmasında daha üstün metod olaraq sayılır. Bu müsahibələr hansıdır?

A) Stress müsahibələr

B) Davranış müsahibələri

C) Keys müsahibələr

D) Səriştə müsahibələri

E) Panel müsahibələr

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

126. Bu müsahibə növündə müsahibə götürən namizədi hər hansı bir situasiya qarşısında qoyur. Namizəd situasiyanı görür və bunu həll etmək üçün həll yolu göstərir. Bu müsahibənamizədlərin analitik, riyazi, biznes bilik və bacarıqlarını inkişaf etdirir. Söhbət hansı müsahibədən gedir?

A) Keys müsahibələrdən

B) Səriştə müsahibələrindən

C) Panel müsahibələrdən

D) Stress müsahibələrdən

E) Davranış müsahibələrindən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

127. Aşağıda göstərilənlərdən hansılar İnsan Resursları Prosesinin məqsədlərinə daxildir? Tam və düzgün cavabı müəyyən edin.
1.Düzgün sayda və uyğun bacarıqlı, səriştəli və kvalifikasiyalı insanların təşkilata cəlb edilməsi və saxlanılması;
2.Gələcək potensial insan resursları çatışmazlığı probleminin proqnoz edilməsi;
3.Müxtəlif mühitə uyğunlaşması üçün dəyişkən və çox bacarıqlı işçi qüvvəsini formalaşdırması;
4.Xarici cəlb etmə prosesinin qarşısının alınması, işçilərin inkişaf strategiyalarının hazırlanması;
5.Daha dəyişkən və elastik iş saatları təklif etməklə işçilərdən fərqli şəkildə istifadə edilməsi.

A) 1,2,5

B) 1,2,3,5

C) 2,3,4,5

D) 1,2,3,4,5

E) 1,2,3,4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ. İsgəndərov, M. Əsgər, N. Şıxəliyev. İnsan resursları menecmenti. Monoqrafiya. Bakı, 2017

128. İşsizliyin sayının fəal əhalinin ümumi sayına nisbətidir?

A) İşçi axıcılığı

B) Məşğulluq

C) İşsizlik səviyyəsi

D) İmmiqrasiya

E) Əmək bazarı

Testin çətinlik dərəcəsi: asan

İstinad: M. Əliyev, H. Həmidov. Biznesdə insan resurslarının idarə edilməsi. Dərslik. Bakı, 2013

129. Kənar edilmə və şəxsi səbəblər üzündən başqa işə keçmə nəticəsində işçi heyəti tərkibinin dəyişməsinin göstəricisidir:

A) Məşğulluq

B) İşçi axıcılığı

C) İmmiqrasiya

D) Əmək bazarı

E) İşsizlik səviyyəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: M. Əliyev, H. Həmidov. Biznesdə insan resurslarının idarə edilməsi. Dərslik. Bakı, 2013

130. Özlərindən asılı olmayan səbəblər üzündən müvəqqəti işləməyən şəxsləri də əhatə etməklə istehsal fəaliyyəti ilə məşğul olan insanlar necə adlandırılır?

A) Əmək fəaliyyətli əhali

B) İşsiz insanlar

C) Qeyri-fəal əhali

D) Fəali əhali

E) Məhsuldar işçi qüvvəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: M. Əliyev, H. Həmidov. Biznesdə insan resurslarının idarə edilməsi. Dərslik. Bakı, 2013

131. İşçi qüvvəsinə tələb və təklifin formalaşdığı sferadır?

A) Məşğulluq mərkəzi

B) Əmək bazarı

C) Əmək birjası

D) Miqrasiya

E) Əmək yarmarkası

Testin çətinlik dərəcəsi: asan

İstinad: M. Əliyev, H. Həmidov. Biznesdə insan resurslarının idarə edilməsi. Dərslik. Bakı, 2013

132. İnsan resurslarının idarə edilməsi funksiyalarında aşağıdakılardan hansılar daxildir?
1 .İş analizləri;
2. İnsan resurslarının planlaşdırılması;
3. İnsan resurslarının seçilməsi və yerləşdirilməsi;
4. İnsan resurslarının təhsili və ixtisaslaşdırılması (treninq);
5 .Oriyentasiya(adaptasiya);
6. Xidməti fəaliyyətin qiymətləndirilməsi.

A) 1,2,3,4

B) 1,2,3,6

C) 1,2,3,4,6

D) 1,2,3,4,5,6

E) 1,2,3,4,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M. Əliyev, H. Həmidov. Biznesdə insan resurslarının idarə edilməsi. Dərslik. Bakı, 2013

133. Müəssisə əməkdaşlarına verilən tədrisin məqsədləri hansılardır? Tam və doğru cavabı müəyyən edin.
1.Peşə üçün zəruri olan yeni bilik və vərdişlərin əldə etməsi;
2.Peşəkarlıq səviyyəsinin artırılması;
3.Məzuniyyət, xəstəlik, işdən çıxarılma və s. kimi vəziyyətlərdə iş yoldaşlarının əvəz edilməsi;
4.Peşəkar karyera yüksəlişlərinə istiqamətləndirmə;
5.Əməkdaşın müəssisənin strateji hədəfləri, inkişaf strategiyası, korporativ qaydaları, peşə standartları və fəaliyyət texnologiyası ilə tanışlığının təmin edilməsi;
6.Əməkdaşda işə və kollektivə müsbət münasibətin formalaşdırılması.

A) 1,2,5,6

B)  2,3,4,5,6

C) 1,2,3,4

D) 1,2,3,4,5

E) 1,2,3,4,5,6

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M. Əliyev, H. Həmidov. Biznesdə insan resurslarının idarə edilməsi. Dərslik. Bakı, 2013

134. Tədris fəaliyyətləri ilə bağlı qərarlar verilərkən aşağıdakı amillərdən hansılar nəzərə alınmalıdır? Tam və düzgün cavabı müəyyən edin.
1.Şirkət rəhbərlərinin üstünlük verdikləri tədris növləri;
2.Şirkət rəhbərliyi tərəfindən müəyyənləşdirilən tədrislərin müddəti;
3.Tədris tədbirlərini həyata keçirəcək olan şəxslərin tədris səviyyəsi, qabiliyyət və bacarıqları;
4.Müəssisə tərəfindən tədris tədbirlərinə xərclənən pul vəsaitinin məbləği;
5.Tədrisdən əldə ediləcək nəticələrin proqnozlaşdırılması və qiymətləndirilməsi.

A) 1,3,4,5

B) ,2,3,4,5

C) 1,2,3,5

D) 1,2,3,4

E) 1,2,3,4,5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M. Əliyev, H. Həmidov. Biznesdə insan resurslarının idarə edilməsi. Dərslik. Bakı, 2013

135. Pozulmuş hüquq və azadlıqların bərpası və müdafiəsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət növü hansıdır?

A) Ərizə

B) Sorğu

C) Şikayət

D) Müraciət

E) Təklif

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

136. Əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə hansı müddət ərzində baxılır?

A) Ən geci 15 iş günü müddətində

B) Ən geci 20 iş günü müddətində

C) Ən geci 30 iş günü müddətində

D) Ən geci 7 iş günü müddətində

E) Ən geci 3 iş günü müddətində

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

137. Hansı halda müraciət baxılmış hesab olunur?

A) Müraciətə baxıldıqda və bu barədə vətəndaşa məlumat verildikdə

B) Müraciətdə göstərilən məsələyə baxıldıqda və bu barədə vətəndaşa əsaslandırılmış cavab verildikdə

C) Müraciətdə göstərilən məsələlər həll edildikdə və aidiyyəti üzrə göndərildikdə

D) Müraciətə baxılmadan imtina edildikə və bu barədə vətəndaşa məlumat göndərildikdə

E) Müraciət qeydiiyata alındıqda və icraata göndərildikdə

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

138. Protokolun mətni hansı hissədən ibarət olmalıdır?

A) Giriş hissəsindən və əsas hissədən

B) Giriş hissəsindən və şərh hissədən

C) Giriş hissəsindən və sərəncam hissədən

D) Şərh hissəsindən və əsas hissədən

E) Şərh hissəsindən və sərəncam hissədən

Testin çətinlik dərəcəsi: asan

İstinad: “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”

139. İşçilərə ilkin təlimatı kim keçir?

A) Əməyin mühafizə şöbəsinin mühəndisi

B) Əməyin mühafizəsi şöbəsinin rəisi

C) Sahə və ya işin rəhbəri

D) Həmkarlar ittifaqı komitəsinin sədri

E) Müəssisənin direktoru

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

140. İşçilərə ilkin təlimat harda keçirilir?

A) Baş mühəndisin yanında

B) İşçinin göndərildiyi sahədə

C) Həmkarlar ittifaqı komitəsində

D) Əməyin mühafizəsi otağında

E) Əməyin mühafizəsi şöbəsinin rəisinin yanında

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

141. İş yerlərində əmək şəraiti dəyişərsə və ya hər hansı bir bədbəxt hadisə baş verərsə bu zaman işçilərə hansı təlimat keçirilməlidir?

A) Təkrar təlimat

B) İlkin təlimat

C) Növbədənkənar təlimat

D) Birdəfəlik təlimat

E) Giriş təlimat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

142. İş yerində təlimat öz növbəsində hansı təlimatlara bölünür?

A) İlkin, giriş və növbədənkənar

B) İlkin, vaxtaşırı, növbədənkənar və birdəfəlik

C) Giriş, vaxtaşırı, birdəfəlik və növbədənkənar

D) Giriş, vaxtaşırı və növbədənkənar

E) Giriş, ilkin, vaxtaşırı, birdəfəlik və növbədənkənar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

143. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində gündəlik normal iş vaxtının müddəti neçə saatdır?

A) 8 saatdan artıq olmamalıdır

B) 10 saatdan artıq olmamalıdır

C) 7 saatdan artıq olmamalıdır

D) 5 saatdan artıq olmamalıdır

E) 6 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

144. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində həftəlik normal iş vaxtının müddəti neçə saatdır?

A) 40 saatdan artıq olmamalıdır

B) 35 saatdan artıq olmamalıdır

C) 36 saatdan artıq olmamalıdır

D) 33 saatdan artıq olmamalıdır

E)  45 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

145. Təhlükəli və zərərli amillər hansı qruplara bölünür?

A) Kimyəvi, bioloji və psixofizioloji

B) Sosioloji, kimyəvi, bioloji və psixofizioloji

C) Bioloji və psixofizioloji

D) Fiziki və  kimyəvi və psixofizioloji

E) Fiziki, kimyəvi, bioloji və psixofizioloji

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I-cild. Bakı, 2010. Səh. 456

146. İş yerlərində attestasiyanın keçirilməsi neçə müddətdən bir aparılır?

A) İki ildə bir dəfədən az olmayaraq

B) Dörd ildə bir dəfədən az olmayaraq

C)  Üç ildə bir dəfədən az olmayaraq

D) Beş ildə birdəfədən az olmayaraq

E)  İldə bir dəfədən az olmayaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

147. Qadınlar üçün əllə daşınan yüklərin yüklənib boşaldılması və daşınması zamanı çəkisi maksimum nə qədər olmalıdır ?

A) 25 kq-dan artıq olmamalıdır

B) 15 kq-dan artıq olmamalıdır

C) 30 kq-dan artıq olmamalıdır

D) 50 kq-dan artıq olmamalıdır

E) 10 kq-dan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

148. Əl ilə yüklərin daşınması məsafəsi neçə metrdən artıq olduqda yüklərin daşınmasına icazə verilmir?

A) 80 metrdən artıq olduqda

B) 40 metrdən artıq olduqda

C) 60 metrdən artıq olduqda

D) 100 metrdən artıq olduqda

E) 120 metrdən artıq olduqd

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

149. Nə zaman yüklərin yüksəkliyə qaldırılmasına icazə verilir?

A) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

B) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

C) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

D) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

E) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 5 m-dən çox olmadıqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

150. İstehsalat binalarında otaqların tavanı döşəmədən minimum nə qədər məsafədə olmalıdır?

A) 2 metrdən az olmamalıdır

B) 3 metrdən az olmamalıdır

C) 4 metrdən az olmamalıdır

D) 1 metrdən az olmamalıdır

E) 2,5 metrdən az olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi. Məlumat kitabı. Bakı, 2003. Səh. 127

151. Elektrik cərəyanının təsirindən qoruyan mühafizə vasitəsini göstərin?

A) Dezaktivasiya vasitələri

B) Səsboğan

C) İzoləedici örtüklər və qurğular

D) Hermetikləşdirici qurğu

E) İşıq filtrləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

152. Yer səthindən 2 metrdən yüksəklikdə iş aparılan zaman əsasən nədən istifadə olunmalıdır?

A) Rezin əlcəkdən

B) Xüsusi çəkmələrdən

C) Qulaqcıqdan

D) Eynəkdən

E) Qoruyucu kəmərdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

153. Nəfəs yollarının mühafizəsi üçün hansı mühafizə vasitələrindən istifadə olunur?

A) Şlanqlı əleyhqazlardan

B) Süzgəcli əleyhqazlar və qulaqcıqlardan

C) Süzgəcli, oksigenli əleyhqazlar və dəbilqədən

D) Resperatorlar, əleyhqazlar və eynəkdən

E) Resperator və  əleyhqazlardan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

154. Qapalı sınıqlar zamanı ilk tibbi yardım kimi nə etmək lazımdır?

A) Sadəcə həkimi gözləmək

B) Ağrıkəsici dərman vermək və tibb müəssisəsinə çatdırmaq

C) Şina qoyub tərpənməz vəziyyətdə saxlamaq, tibb müəssisəsinə çatdırmaq

D) Təmiz havaya çıxarmaqbintlə sarımaq

E) Deformasiya uğramış nahiyyəni düzləndirib bintlə sarımaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Tibb bacısının məlumat kitabı Bakı  2008

155. Bədbəxt hadisə nədir?

A) Texniki qurğuların dayanması, yaxud nasazlığı

B) İşçinin və ya işçilərin iş yerlərində alığı xəsarətdir

C) Texnoloji rejiminin pozulması

D) Nəzarət edilə bilməyən partlayış və yanğın

E) Təhlükəli maddələrin ətraf mühitə yayılması

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

156. İstehsalat təhlükəsi və ya zərərli amillərin təsirinin qarşısını alan və ya azaldan vasitələr necə adlanır?

A) Təhlükəsizlik vasitələri

B) Mühafizə vasitələri

C) Kollektiv vasitələri

D) Xilasetmə vasitələri

E) Xəbərvermə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

157. Yanan metalları nə ilə söndürmək olar?

A) Xüsusi təyinatlı tozlarla

B) Ümumi təyinatlı tozlarla

C) Köpüklə

D) Su ilə

E) Buxarla

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

158. Gərginlik altında olan avadanlıqlarda baş vermiş yanğını söndürərkən ilk növbədə nə etmək lazımdır?

A) Bölməni hermetikləşdirmək

B) Qəza bölməsini və avadanlıqları cərəyandan ayırmaq

C) Bölməni su ilə doldurmaq

D) Koşma ilə üstünü bağlamaq

E) Bölməni köpüklə doldurmaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

159. Yanğın həyəcan siqnalı verilərkən hansı fəaliyyətləri yerinə yetirmək lazımdır?

A) İşi dayandırmaq, toplantı məntəqəsinə getmək və növbəti komandanı gözləmək

B) İşi davam etmək və heyətdən yanğının söndürülməsinə nümayəndə ayırmaq

C) İşi dayandırmaq, əşyaları götürmək, otaqları bağlayıb ərazini tərk etmək

D) Bölməni hermetikləşdirmək və sahil yanğınsöndürmə dəstələrini gözləmək

E) Yanğın yerini axtarmaq və onu söndürməyə başlamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu (Bakı-10.06.1997) Respublikasında yanğın təhlükəsizliyi qaydaları

160. Süni tənəffüs hansı yollar ilə verilir?

A) Yalnız ağızdan-ağıza

B) Yalnız ağızdan-buruna

C) Ağızdan-ağıza, ağızdan-buruna

D) Bədəni masaj etməklə

E) Əl və ayağı hərəkət etdirməklə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

161. Peşə xəstəliyi nədir ?

A) Əmək qabiliyyətini qismən itirməklə nəticələnən xəstəlik

B) Əmək qabiliyyətini müvəqqəti itirməklə nəticələnən xəstəlik

C) Vəzifəsini yerinə yetirərkən aldığı zərərli amillərin təsirindən yaranmış xəstəlik

D) Əmək qabiliyyətini tam itirməklə nəticələnən xəstəlik

E) Əmək qabiliyyətini 3 gündən az olmayaraq itirməklə nəticələnən xəstəlik

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

162. Bədbəxt hadisə baş verən zamanı ilk növbədə iş rəhbərinin vəzifəsi:

A) Zərərçəkənə heç bir kömək etməməli və rəhbərliyə xəbər verməli

B) Həmkarlar ittifaqı təşkilatına xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

C) Sanitariya-epidemioloji xidmətinə xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

D) Zərərçəkənə ilk tibbi yardım göstərilməli və tibb məntəqəsinə çatdırılmasını təşkil etməli və rəhbərliyə xəbər verməli

E) Müəssisənin rəhbərliyinə və zərər çəkənin evinə məlumat verməli

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

163. Zərərli istehsalat amillərinin təsiri nəticəsində yaranan xəstəliy:

A) Peşə xəstəliyi

B) Sarılıq xəstəliyi

C) Sətəlcəm xəstəliyi

D) Şəkər xəstəliyi

E) Qızılça xəstəliyi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

164. Hansı hündürlükdən başlayaraq“Yüksəklikdə görülən işlər”anlayışı qüvvəyə minir?

A) 3.0 m

B) 2.5 m

C) 5.0 m

D) 1.8m

E) 2.10 m

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qərarı ilə 2016-cı ildə təsdiq edilib. Hündürlükdə iş zamanı texniki təhlükəsizlik Qaydaları. Bakı, 2016

165. Kollektiv mühafizə vasitələri nədir?

A) Kənar şəxsləri qorumaq üçün tətbiq edilən vasitələr

B) Tək bir adamı qorumaq üçün tətbiq edilən vasitələr

C) Dəzgahları qorumaq üçün tətbiq edilən vasitələr

D) Bütün sex işçilərini qorumaq üçün tətbiq edilən vasitələr

E) İki və ya çox işçini qorumaq üçün tətbiq edilən vasitələr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999

166. Təxliyyə (köçürmə) planları hansı binalarda tərtib olunur?

A) 10 nəfərdən çox insan olan

B) 100 nəfərdən çox insan olan

C) Hamısında

D) 17 nəfərdən çox insan olan

E) 27 nəfərdən çox insan olan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

167. Yanğınsöndürmə vasitələrindən istifadə qaydalarını kimlər bilməlidirlər?

A) Sex rəisi

B) Fəhlələr və aparatçıla

C) Qulluqçular

D) Fəhlə və qulluqçuların hamısı

E) Ustalar və çilingərlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

168. Müəssisədə yanğın təhlükəsizliyi qaydalarına kimlər əməl etməlidir?

A) Fəhlə və qulluqçuların hamısı

B) Sex rəisi

C) Qulluqçular

D) Fəhlələr və aparatçılar

E) Ustalar çilingərlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

169. Yanğın təhlükəsizliyinə aid olan normativ sənədlər:

A) Standartlar, yanğın təhlükəsizliyi normaları, qaydaları və təlimatları

B) Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə

C) Sanitariya-epidemioloji qaydalar haqqında Əsasnamə

D) Həmkarlar ittifaqının nizamnaməsi

E) Aktlar, xidməti yazılar və texniki təhlükəsizlik qaydaları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997

170. Məişət və iş otaqlarında hansı elektrik cihazlarından istifadə etmək qadagandır?

A) Slaydoskopdan, telefondan, printerdən

B) Kompyuterdən, printerdən. Proyektordan

C) Kompyuterdən, telefondan, printerdən, kondisionerdən

D) Yüksək tezlikli sobadan, elektrik qızdırıcı cihazlardan, elektrik su qəfədanından

E) Proektordan, kondisionerdən, slaydoskopdan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

171. Fövqəladə hal baş verərsə hansı nömrəyə zəng etmək lazımdır?

A) 112

B) 104

C) 102

D) 103

E) 101

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Fövqaladə Hallar Nazirliyinin qaynar xətti

172. Binalarda yanğına qarşı nə olmalıdır?

A) Pilləkan qəfəsində dəmir qapı

B) Köçürmə sxemləri və işarələri, xəbərdarlıq plakatları, yanğınsöndürmə vəsitələri

C) Təlimatın kecirilməsi üçün xüsusi otaq

D) Dəhlizdə qumla təchiz edilmiş yanğın lövhəsi

E) Mərtəbələrdə əlavə nərdivanla

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

173. Yanğın baş verən zaman ilkin yanğınsöndürmə vasıtələrından kimlər istifadə etməlidir?

A) Sex rəisi

B) Növbə rəisi

C) Fəhlə və qulluqçular

D) Texnoloq

E) Yanğın söndürmə komandiri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

174. Yanğın aşkar etdikdə nə etməli?

A) Dərhal bələdiyyəyə xəbər vermək

B) Dərhal polis mühafizə bölməsinə xəbər vermək

C) İcra hakimiyyətinə xəbər vermək

D) Dərhal yanğından mühafizə bölməsinə xəbər vermək

E) Dərhal əmək müfəttişliyinə xəbər vermək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

175. Fərdi muhafizə vasitələri hansılardır?

A) Tənəffüs orqanları mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri və tibbi mühafizə vasitələri

B) Görmək və eşitmək üçün mühafizə vasitələri

C) Danışmaq üçün mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri

D) Anlatmaq üçün mühafizə vasitələri, ayaq üçün mühafizə vasitələri

E) İtdən və ilandan qorunmaq üçün mühafizə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999